| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL206 Müasir Azərbaycan dili II(morfologiya)<br>3 kredit. 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat | |
| | **Tədris semestri** | 2022/2023-ci tədris ilnin yaz semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | Fil.üzrəAlmaz Bədəlova | |
| | **E-mail:** | Doctorant@live.com | |
| | **Mühazirə otağı/Cədvəl** | | |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | AZLL108 | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Q.Kazımov Müasir Azərbaycan dili (morfologiya) Bakı, 2003<br>M.Hüseynzadə Müasir Azərbaycan dili Bakı, 1990<br>Müasir Azərbaycan dili III hissə, Bakı,2007<br>XəlilovB. Azərbaycan dilinin morfologiyası. Bakı,2014<br>Müasir Azərbaycan dili II Bakı,1988 | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Tapşırıq | | 10 |
| | Davamiyyət | | 5 |
| | Quiz | | 10 |
| | Final imtahanı | | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Qrammatika- dilin qrammatik quruluşunu öyrənən elmdir. Qrammatika sözlərin dəyişilməsi və onların cümlədə birləşməsi qaydalarının məcmusudur. Morfologiya da qrammatikanın bir hissəsidir. Morfologiyanın obyekti sözdür. Morfologiya sözün geniş qrammatik mənalarını öyrənən bir elmdir. Morfologiya bütün nitq hissələrini əhatə edir, onların oxşar və fərqlicəhətlərini öyrənir "Müasir Azərbaycan dili II" (morfologiya )kursunda söz yaradıcılığı kök və şəkilçi,leksik və qrammatik şəkilçilərin omonimliyi, müasir Azərbaycan dilində mövcud olan əsas nitq hissələrinin qrammatik kateqoriyaları, köməkçi nitq hissələrin xüsusiyyətləri, səs təqlidi sözlər öyrəniləcək. | | |
| **Kursun məqsədləri** | Kursun əsas məqsədi müasir Azərbaycan dilində işlənən nitq hissələrinin təsnifi prinsipləri, onların müxtəlif qruplar üzrə qruplaşdırılması, hər bir nitq hissəsinin quruluş xüsusiyyətləri, ümumi qrammatik kateqoriyalar haqqında tam təsəvvür yaratmaqdan ibarətdir. Müasir Azərbaycan dilində mövcud olan nitq hissələrinin bölgüsü, əsas və köməkçi nitq hissələrinin daxili quruluşunu və özünəməxsus özəlliklərini elmi şəkildə öyrənməkdir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələr aşağıdakıları edə biləcəklər:<br><br>1.Müasir Azərbaycan dilinin morfologiyasını daha dərindən mənimsəyəcəklər.<br><br>2. Azərbaycan dilində söz yaradıcılığının özəllikləri öyrəniləcək.<br><br>3. Nitq hissələrinin bölgüsü haqqında dilçilikdə mövcud olan elmi fikirlər təhlil olunacaq.<br><br>4. Sözləri cümlədə necə dəyişdirmək və işlətmək qaydalarını mənimsəyəcəklər | | |

| | |
|---|---|
| | 5.Öz nitqlərini düzgün qurmağı öyrənəcəklər;<br><br>6. Fikirlərini sərbəst və səlis şəkildə ifadə edə bilmək qabiliyyətinə yiyələnəcəklər;<br><br>7. Düzgün yazı vərdişləri əldə edəcək, qrammatik baxımdan düzgün yazmağı və oxumağı öyrənəcəklər. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq**<br>1.Fəallığa görə veriləcək 5 bal tələbənin müzakirələrdə iştirakına, semetsr boyu həftəlik dərs proqramına hazırlaşmalarına, yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa görə veriləcəkdir.<br>2. Semetsr boyu həftəlik dərs proqramına hazırlaşmalarına və ev tapşırıqlarının yerinə yetirilməsinə görə 10 bal veriləcəkdir.<br>3. Quiz 10 suallı olacaqdır. Hər 1 sual 1 balla qiymətləndiriləcək. Quizin ümumi balı 10 ballıqdır.<br>4. Davamiyyətə görə veriləcək 5 bal zamanı tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır.<br><br>**Davamiyyət**<br>Tələbə 10 dəqiqədən artıq dərsə gecikərsə qaib yazılacaq. Qaib yazılmış olsa belə, onların dərsdə iştirakına icazə veriləcək. Tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaq.<br><br>**İmtahan haqqında**<br><br>1.İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br>2.İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.<br>3. Aralıq və Final imtahanlarının hər ikisində suallar test və ya klassik ola bilər. |

**Cədvəl**

| Həftə | Tarix (planlaşdırılmış) | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | Azərbaycan dilinin morfologiyası haqqında məlumat<br>Müasir Azərbaycan dilində nitq hissələrinin bölgüsü | MAD.III 5-16<br>MAD.III 16-19 |
| 2. | | Əsas nitq hissələri. İsim.<br>İsmin quruluşca növləri | MAD.III. 19-26<br>MAD.III 26-37 |
| 3. | | Qrammatik kateqoriyalar<br>Müasir Azərbaycan dilində sifət | MAD.III. 37-64<br>MAD.III. 64-78 |
| 4. | | Sifətin dərəcələri<br>Müasir Azərbaycan dilində say | MAD.III. 78-82<br>MAD.III. 82-95 |
| 5. | | Müasir Azərbaycan dilində əvəzlik<br>Müasir Azərbaycan dilində feil. Feilin quruluşca növləri | MAD.III. 95-118<br>MAD.III. 118-128 |
| 6. | | Feillərdə təsirlilik və təsirsizlik.<br>Növ kateqoriyası. | MAD.III. 129-135<br>MADIII 136-154 |
| 7. | | Feilin təsriflənməyən formaları:Məsdər.<br><br>Aralıq imtahanı | MAD.III. 178-182 |

| | | | |
|---|---|---|---|
| 8. | | Feili sifət<br>Feili bağlama | MADIII 183-190<br>MAD.III. 190-200 |
| 9. | | Müasir Azərbaycan dilində zərf<br>Zərfin quruluşca növləri | MAD.III. 200-<br>211MADIII.211-218 |
| 10. | | Zərfin məna növləri<br>Müasir Azərbaycan dilində köməkçi nitq hissələri | QK.MAD.358-378<br>MADIII.218-220 |
| 11. | | Qoşma<br><br>Müasir Azərbaycan dilində bağlayıcı | MADIII.7074;QK.MAD.379-395<br>MADIII.228-245 |
| 12. | | Bağlayıcının növləri.<br>Müasir Azərbaycan dilində ədat | QK.MAD.395-412<br>MADIII.245-264 |
| 13. | | Müasir Azərbaycan dilində modal sözlər<br>Modal sözlərin işlənmə məqamları | MADIII.264-2698<br>QK.MAD.424-432 |
| 14. | | Nidanın əsas xüsusiyyətləri<br>Müasir Azərbaycan dilində səstəqlidi sözlər | MADIII.273-276<br>MADIII.426-434 |
| 15. | | Səs təqlidi sözlərin yaranması<br>Sözlərin morfoloji təhlili | MAƏD.426-439 |
| | | **Final imtahan** | |